**Orucoğlu Z**. Onun ürəyi Vətənlə döyünürdü... // Respublika. - 2023. - 26 iyun. - **№ 135**. - S. 8.

Lənkəran elinin qürur və iftixarına dönən İqbal Bayramovun 43 ilik ömür yolu baş dan-
başa saflıq dünyasına bənzəyir. Yaşadığı illərin səfində onun mənəviyyat fəlsəfəsin də yalnız gözəl dünya naminə qurub-
yaratmaq, hər bir işdə yurduna gərək olmaq dururdu. Bütün yaxşılıqlar, nəcib əməl lər, insanlara təmənnasız münasibət bu ləyaqətli dəyərli şəxsiyyətin iç dünyasından qaynaqlanırdı.

Qəlbində Vətənə sevgi, xalqına sonsuz məhəbbət yaşatmaqla İqbal Bayramov doğ ma Hirkan qəsəbəsində orta təhsilini başa vurub 1994-
cü ildə Azərbaycan Dövlət Neft Akademiyasına daxil olur. Tələbəlik illərində oxuy ub öyrənməkdən doymur. Həm də İqbalın gözəl əxlaqı, həyata sağlam baxışı, insan lığa sevgisi burada müəllimlərin, tələbələrin yanında onun nüfuzunu artırır. Ali mə ktəbi yüksək səviyyədə bitirəndə hamı onu layiqli vətəndaş, millətin səadəti üçün y aşamağı bacaran bir insan bilir...

Namərd erməni dığaları tərəfindən Qarabağ torpaqlarının əsarətdə saxlanması İqba lın ən yaralı yeri idi. Ali təhsildən sonra, yəni 2001-
ci ildə öz arzusu, istəyi ilə Milli Ordu sıralarına yollanır. Leytenant rütbəsində cəbh ə bölgəsində yerləşən Ağdam-
Tərtər istiqamətində "N" saylı hərbi hissəyə taqım komandiri təyin olunur. O, Vətə ninə vicdanla xidmət edir, onun qeyrətini hər şeydən əziz tutur, bu yolda canından belə keçməyə hazır durur.

Həqiqi hərbi xidmətdən sonra İqbal baş leytenant rütbəsi ilə ehtiyata buraxılır. Üç i l mülki həyatda müxtəlif işlərdə çalışır. Günləri rahat, gözəl keçsə də, düşmənin əd alətsiz hərəkətlərinə son qoymaqdan ötrü özünü hərbiə bağlayır. Müxtəlif vəzifələr i tutmaqla yalnız Vətən torpaqlarının azadlığına çalışır. Anamız Azərbaycanın qeyr ətli oğlu kimi sinəsini yanar od edib düşmənin bağrını çatladan günə hazırlaşır. Və ürəyi hər zaman Vətən eşqi ilə döyünür, nümunəvi xidmət göstərməklə ad qazanır. Mayor rütbəsinə qədər yüksəlir. Sıralanan medallara şəhidlik zirvəsinə ucalandan s onra aldığı "Vətən uğrunda" medalı da əlavə olundu.

Vətən müharibəsi başlanan gündən mayor İqbal Bayramov döyüşə 30 il Qarabağ to rpaqlarını murdarlayan dığalara nifrət hissi ilə atılır. Sanki düşmənin kökünü kəsm əkdə Vətən sevgisi ona hər savaşda yeni qüvvə verir. Təki Azərbaycanın müqəddəs torpaqları azad olunsun deyə ən ağır döyüş meydanında cəsarətlə döyüşür, öndə ge

dir, əsgərlərini hücuma səsləyir. Cəbrayılda da dığalara od qoyur, onların çoxlu can lı qüvvəsini məhv edir, texnikasını sıradan çıxardır. Bundan əlavə, dəfələrlə çiyin y oldaşlarını mühasirədən çıxarır.
5 oktyabrda düşmən gülləsi İqbalın ömrünə son qoyur.

İqbal Bayramov ömrünü Vətəni üçün yaşadı. Elə buna görə də bütün Lənkəran ca maatı öz qəhrəman oğlu ilə fəxr edir, onun şərəfli ömür yolunu özlərinə örnək bilirl ər.